# Həftəlik
# *Bülleten*

**115**
**31 Oktyabr 2025**



- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və lahiyələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Belarus şirkəti Azərbaycanda liftləri modernləşdirəcək - Birgə Hökumətlərarası Komissiyanın iclası keçirildi.**

Oktyabrın 28-də Azərbaycan və Belarus arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 15-ci iclası keçirilib. Nazirlər Kabinetindən bildirilib ki, iclasa Azərbaycan tərəfindən Baş nazirin müavini, Komissiyanın həmsədri Samir Şərifov, Belarus tərəfindən isə Baş nazirin müavini, Komissiyanın həmsədri Natalya Petkeviç rəhbərlik edib. Komissiyanın fəaliyyətinin ötən dövr üzrə nəticələri nəzərdən keçirilib, 2024–2025-ci illəri əhatə edən əməkdaşlıq üzrə Yol Xəritəsinin icrası ilə bağlı müzakirələr aparılıb. Sənaye, kənd təsərrüfatı, maşınqayırma, şəhər təsərrüfatı, peşə təhsili, nəqliyyat-logistika, ticarət və investisiya sahələrində konkret nəticələr və irəliləyişlər qeyd edilib. Qeyd edilib ki, Belarusla lift istehsalı və təchizatı sahəsində uzunmüddətli əməkdaşlıq çərçivəsində Azərbaycanda “Moqilyovliftmaş” ilə lokal istehsalın genişləndirilməsi üzrə işlər davam etdirilir, 2025-ci ildə 200 liftin modernləşdirilməsi və quraşdırılması nəzərdə tutulur. Bildirilib ki, 2024-cü ildə ticarət dövriyyəsi 42 faiz artaraq 506 milyon ABŞ dollarına çatıb. Bununla belə, tərəflər ticarət nomenklaturasının genişləndirilməsi, yeni məhsullar və xidmət qruplarının dövriyyəyə daxil edilməsi və tranzit-logistika imkanlarının daha fəal istifadəsini vacib hesab ediblər.



**Azərbaycanda 13-cü Ümumdünya Şəhərsalma Forumu keçiriləcək.**

Dünyanın ən mötəbər şəhərsalma tədbiri Bakıda keçiriləcək!
17-22 may 2026-cı il tarixlərində Azərbaycan BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) və Azərbaycan Respublikası Hökumətinin birgə təşkilatçılığı ilə dayanıqlı şəhər inkişafı üzrə dünyanın aparıcı platforması olan 13-cü Ümumdünya Şəhərsalma Forumuna ev sahibliyi edəcək.
"Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusu altında keçiriləcək WUF13-də müxtəlif ölkələrdən liderlər və fərqli sahələrdən olan ekspertlər bir araya gələrək hamı üçün əlverişli yaşayış şəraiti təmin etməyin yolları, gələcək nəsillər üçün dayanıqlı, inklüziv və davamlı şəhərlərin qurulması istiqamətlərini müzakirə edəcəklər.



**Zəngilanın 104 mənzilli yaşayış kompleksində müasir memarlıq yanaşmaları əsas götürülüb.**

Zəngilana ezam olunmuş əməkdaşı xəbər verir ki, bu barədə "Prezidentin izi ilə" rayona təşkil olunan mediatur çərçivəsində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin (BTİX) İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri İlhamiyyə Rzayeva məlumat verib. O qeyd edib ki, 12 binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 1,92 hektardır və burada 104 mənzil inşa olunub: "Burada 12 binanın tikintisi aparılır. Binalardan 8-i ikimərtəbəli, 4-ü isə üçmərtəbəlidir. Hazırda binaların daxili bəzək işləri yekunlaşıb. Kompleksdəki binaların inşasında müasir memarlıq yanaşmaları əsas götürülüb. Kompleksdə müvafiq avadanlıqla təchiz olunmuş uşaq və idman meydançaları quraşdırılıb". Xidmət rəsmisi vurğulayıb ki, məhəllədə 6 yerüstü və yeraltı avtomobil dayanacağı var: "Elektromobillər üçün enerjidoldurma məntəqəsi də nəzərdə tutulub. Yaşayış kompleksinin ərazisində yeraltı su rezervuarları və transformator kimi mühəndis qurğuları da quraşdırılıb. Yaşayış kompleksi şəhərin mərkəzi hissəsində, məktəb, uşaq bağçası və şəhər parkının yaxınlığında, ortasıxlıqlı və çoxfunksiyalı zonada yerləşir".



**ADSEA: Lökbatanda 23 kilometrlik kollektor və sutəmizləyici qurğu tikilir.**

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti Bakı şəhəri və Abşeron rayonunda yeni kanalizasiya kollektorları və tullantı sular üçün sutəmizləyici qurğularının tikintisi layihələrinə başlayıb. ADSEA-ya istinadən xəbər verir ki, layihələrdən biri Lökbatan hövzəsi üzrə gətirici kanalizasiya kollektoru və tullantı sular üçün sutəmizləyici qurğunun tikintisidir. Ümumi uzunluğu 23 kilometr, məhsuldarlığı gün ərzində 100 min kubmetr olan gətirici kollektorun qurulması nəticəsində bir sıra qəsəbələrin kanalizasiya təchizatı təmin ediləcək. Həmçinin bu işlər çərçivəsində Bakı buxtasının, Xocəsən, Qırmızı, Qu və Lökbatan göllərinin ekoloji vəziyyəti yaxşılaşdırılacaq. Layihə Səbail, Yeni Yasamal, Badamdar, Qanlı gölün ətrafı, Bayıl, Bibiheybət, 20-ci Sahə və Xocasən gölü ətrafı ərazilərini əhatə edəcək. Layihənin tikintisinə 2025-ci ildə başlanılıb və 2028-ci ildə tamamlanması nəzərdə tutulur. Bu tipli layihələr, xüsusilə mikrotunel texnologiyası ilə qurulan kanalizasiya şəbəkələri müasir və dayanıqlı olması ilə seçirilir. Görülən işlər yeni kollektorlar vasitəsilə daşınan tullantı suların sutəmizləyici qurğulara ötürülməsi və təmizlənməsinə, su hövzələrinin çirklənməsinin qarşısının alınmasına xidmət edəcək.



**Azərbaycan bentonit istehsalını 43 %-ə yaxın artırıb.**

Bu ilin ilk 9 ayında Azərbaycanda 234 min ton bentonit istehsal edilib.
Dövlət Statistika Komitəsinə istinadən xəbər verir ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 42,6 % çoxdur.
Bu il oktyabr ayının 1-nə ölkədə 230,8 min ton hazır məhsul ehtiyatı olub.
2024-cü ildə Azərbaycanda 253,1 min ton bentonit istehsal edilib ki, bu da 2023-cü ilə nisbətən 2 dəfə çoxdur.



**Ötən ay Azərbaycan asfalt istehsalını 5 dəfədən çox artırıb.**

Bu ilin yanvar-sentyabr aylarında Azərbaycanda 87,9 min ton asfalt istehsal edilib.

Dövlət Statistika Komitəsinə istinadən xəbər verir ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 36,5 % çoxdur.

Təkcə sentyabrda isə ölkədə 36,3 min ton asfalt istehsal olunub ki, bu da 1 il əvvələ nisbətən 5,3 dəfə çoxdur.

2024-cü ildə Azərbaycanda 141,8 min ton asfalt istehsal edilib ki, bu da 2023-cü illə müqayisədə 15,4 % azdır.



**Bakının bu əraziləri plana düşdü - Daha 4 rayonunda söküntü olacaq.**

Bakının daha 4 rayonunda qəzalı və yaşayışa yararsız evlərin sökülməsi nəzərdə tutulur. Söküntü işləri Bakının Səbail, Binəqədi, Subançu və Suraxanı rayonları ərazisində aparılıcaq.

Belə ki, Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində olan Ərazi Tikinti-Planlaşdirma Mərkəzi adlı qurum Səbail, Binəqədi, Subançu və Suraxanı rayonları ərazisində istismar müddəti bitmiş qəzalı binaların söküntü işlərini təşkil edəcək.

Səbail rayonu ərazisində söküntü işləri Salman Mümtaz küçəsində, ev 30 və uv 34 ünvanında, eləcə də Dağlıq küçəsi 24 ünvanında yerləşən istismar müddəti bitmiş qəzalı binalarda aparılacaq.

Binəqədi rayonunda isə söküntü işləri 1-ci Mədən küçəsi, korpus 54, korpus 73 və korpuz 98 ünvanında yerləşən istismar müddəti bitmiş qəzalı binalarda aparılacaq.

Sabunçu rayonunda işlər rayonun Q.Vəzirov küçəsi, döngə 2, bina 5 və 6 ünvanlarında, Y.Qasımov küçəsi, ev 39 ünvanında yerləşən istismar müddəti bitmiş qəzalı binalarda aparılacaq.

Suraxanıda isə söküntü işləri rayonun Bakı Xanlar Ələkbərov küçəsi, ev 43 ünvanında yerləşən istismar müddəti bitmiş qəzalı binasında aparılacaq.



**Afrika-Azərbaycan Əməkdaşlıq Təşkilatının təşəbbüsü ilə Efiopiya Ticarət Palatası nümayəndələri ilə onlayn formatda görüş keçirildi.**

28 oktyabr tarixində Afrika-Azərbaycan Əməkdaşlıq Təşkilatının təşəbbüsü ilə Efiopiya Ticarət Palatası nümayəndələri ilə onlayn formatda görüş keçirildi. Azərbaycan və Efiopiya arasında iqtisadi əlaqələrin inkişaf etdirilməsi məqsədilə keçirilən görüşdə Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyasının Baş Katibi Kəmalə İsgəndərova iştirak edərək Assosiasiyanın fəaliyyəti barədə iştirakçıları məlumatlandırdı və  Assosiasiya ilə Efiiopiya Ticarət Palatası arasında iqtisadi əlaqələrin genişlənməsi, üzv şirkətlərin bu istiqamətdə maraqlarının olduğunu bildirdi.Görüşdə iştirak edən Assosiasiya üzvləri təmsil etdikləri şirkətlərin fəaliyyəti barədə tanıtım təqdimatları ilə çıxış etdilər.Görüşdə fəal iştirak edən bütün üzvlərimizə təşəkkür edir və gələcək beynəlxalq əlaqələrdə  bu fəallığın davamını arzulayırıq.



**ATMİA üzvlərinin iştirakı ilə işgüzar səhər yeməyi keçirildi.**

30 oktyabr tarixində Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyası (ATMİA) tərəfindən Assosiasiya üzvlərinin iştirakı ilə işgüzar səhər yeməyi təşkil olundu. Tədbir ATMİA-nın Baş katibi Kəmalə İsgəndərovanın salamlama nitqi ilə açıldı. Baş Katib Assosiasiyanın son dövrlərdə həyata keçirdiyi fəaliyyətlər və yaxın müddət üçün planlaşdırılan məsələlər barədə məlumat verərək, üzvlərlə birgə əməkdaşlığın daha da genişlənəcəyi mövzusunda iştirakçıları məlumatlandırdı.Görüş çərçivəsində bir sıra şirkətlərə ATMİA üzvlük sertifikatları təqdim olundu və növbəti işgüzar təşəbbüslər istiqamətində planlar müzakirə edildi.ATMİA olaraq tədbirdə iştirak edən bütün üzvlərimizə və tərəfdaşlarımıza təşəkkür edirik. Qarşıdakı dövrdə birlikdə daha məhsuldar və güclü əməkdaşlıqlar qurmağa davam edəcəyik.



**Sərginin adı: ICW - URBANEXT CENTRAL ASIA 2025**
**Tarixlər: 05 - 07 noyabr 2025-ci il,**
**Məkan: IEC Expo Astana, Astana (Qazaxıstan)**
URBANEXT sərgi və konfransı Qazaxıstanda və bütün Orta Asiya regionunda Ağıllı Şəhər üçün yeni texnologiyaların tətbiqini təşviq edən platformadır.

**Sərginin adı: CLIMATE WORLD MOSCOW 2025**
**Tarixlər: 11 - 14 noyabr 2025-ci il,**
**Məkan: Crocus-Expo IEC, Moskva (Rusiya)**
Beynəlxalq Kondisioner və Ventilyasiya Sərgisi.

**Sərginin adı: SECUREX UZBEKISTAN 2025**
**Tarixlər: 11-13 noyabr 2025-ci il,**
**Məkan: Uzexpocentre, Daşkənd (Özbəkistan)**
Mərkəzi Asiya Yanğından Mühafizə və Təhlükəsizlik Sərgisi

**Sərginin adı: BETON 2025**
**Tarixlər: 12-15 noyabr 2025-ci il**
**Məkan: İstanbul Sərgi Mərkəzi / İstanbul Fuar Mərkəzi / CNR Expo, İstanbul (Türkiyə)**
Hazır Beton Konqresi və Sərgisi. Hazır Beton, Sement, Aqreqat, Tikinti Texnologiyaları və Avadanlıqları.

**Saray qəsəbəsində uşaq bağçası tikiləcək - 2,3 MİLYON MANATLIQ TENDER**

"MİDA" MMC açıq tender elan edib.

Müsabiqə Abşeron rayonu, Saray qəsəbəsində 4,5 ha torpaq sahəsində 2 mərtəbəli 80 yerlik uşaq bağçasının tikintisini əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Vüqar Təyyar oğlu Əliyev, Sektor müdiri
Email: vugar.aliyev@mida.gov.az
Əlaqə telefonu: +994 12 594 54 01 (239)



**Ağdamda 9 milyona yeni park tikiləcək - TENDER KEÇİRİLİR.**

Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti Publik Hüquqi Şəxsi yeni tender elan edib.
Müsabiqə "Ağdam şəhərində Mərkəzi parkın tikintisi işləri"nin satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Emil Quliyev, baş məsləhətçi
Email: emil.guliyev@afxbti.gov.az
Əlaqə telefonu: +994 50 640 00 04



**Bu rayonda yolları təmir edəcək şirkət 1,5 milyon manat qazanacaq – TENDER**

Şəmkir RİHB-nın Şəmkir şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyi açıq tender elan edib.
Müsabiqə Şəmkir şəhərində avtomobil yollarının təmiri işlərinin satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Ramil Yusibov, Baş mühasib
Email: shehersoveti.shamkir@mail.ru
Əlaqə telefonu: +994 22 305 34 31



**Şamaxı şəhərinin baş planını hazırlayacaq şirkət axtarılır – ŞƏRTLƏR**

Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi açıq tender elan edib.
Müsabiqə Şamaxı şəhərinin baş planının hazırlanmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Fərid Cavadzadə, sektor müdiri
Email: ferid.cavadzade@arxkom.gov.az
Əlaqə telefonu: +994 12 493 34 67 (155)



**Dövlət fondu öz binasını 5,2 milyon manata təmir edəcək – TENDER**

"Dövlət Sosial Müdafiə Fondu" Publik Hüquqi Şəxsi açıq tender elan edib.
Müsabiqə Dövlət Sosial Müdafiə Fondunun Bakı şəhəri, Yasamal rayonu, Həsən bəy Zərdabi prospekti 80 ünvanında yerləşən inzibati binasının əsaslı təmiri işlərinin satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Zeynəb Axundova, Böyük mütəxəssis
Email: zeynab.akhundova@sosial.gov.az
Əlaqə telefonu: +994 12 530 29 03



**Qarabağın daha bir rayonunda xəstəxana tikiləcək - TENDER KEÇİRİLİR**

Səhiyyə Nazirliyinin Tikilməkdə Olan Müəssisələrinin Müdiriyyəti açıq tender elan edib.
Müsabiqə Zəngilan Rayon Mərkəzi Xəstəxanasının (91 çarpayılıq) tikintisinin hazırlığını (müvəqqəti bina və qurğular) əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Cabir Muradov, Sənədlərlə iş şöbəsinin müdiri
Email: ftprovision@gmail.com
Əlaqə telefonu: +994 12 493 03 08





**www.atmia.az**